**“Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 1, maddə 10, 6, maddə 414; 2001, 5, maddə 293, 11, maddə 687, 12, maddə 740; 2002, 5, maddə 241, 6, maddə 328, 12, maddə 706; 2004, 5, maddə 318; 2005, 4, maddə 281, 8, maddə 699, 10, maddə 903, 11, maddə 993; 2007, 1, maddə 4, 2, maddə 69, 8, maddə 745, 11, maddələr 1053, 1075; 2008, 6, maddə 462, 7, maddə 602; 2009, 1, maddə 5, 7, maddə 517, 11, maddə 878; 2010, 7, maddə 597, 11, maddə 938; 2011, 4, maddə 258, 12, maddə 1098; 2012, 10, maddə 946; 2013, 11, maddə 1271; 2014, 11, maddə 1353; 2015, 5, maddə 487; 2016, 1, maddə 11) aşağıdakı dəyişikliklər edilsin:

1. 18-ci maddənin 1-ci hissəsinə 6-cı bənd əlavə edilsin;

“6) sahəsi beş hektardan çox təşkil etməyən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin bir ildən artıq olmayan müddətə icarəyə və istifadəyə verilməsi barədə müqavilələri, habelə xüsusi mülkiyyətdə olan həmin torpaq sahələrinin iki ildən artıq olmayan müddətə icarəyə və istifadəyə verilməsinə dair etibarnamələri təsdiq edirlər.”;

2. 32-ci maddənin yeddinci hissəsində “Notarius” sözündən sonra “, notariat hərəkətləri aparan digər vəzifəli şəxslər” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyun 2016-cı il
296-VQD